ADB

VƏTƏNDAŞ CƏMIYYƏTI HAQQINDA QISA MƏLUMAT

# AZƏRBAYCAN

## Ölkə və dövlət haqqında məlumat

Azərbaycan Qafqaz dağlarının cənub-şərq hissəsində yerləşir. Ərazi 86,600 kvadrat kilometri əhatə edir. Ölkə şimaldan Rusiya Federasiyası ilə, şimal-qərbdən dağlıq ərazi boyunca Gürcüstanla, cənubdan İran və Türkiyə ilə və qərbdən Ermənistanla həmsərhəddir. Xəzər Dənizinin sahilində yerləşən Bakı liman şəhəri Azərbaycan Respublikasının paytaxtıdır.

Ümumi 9,2 milyon əhalinin[a] təxminən 52%-i şəhər əhalisidir. Azərbaycan müxtəlif dini qrupların sülh şəraitində birgə mövcudluğunun müsbət nümunəsidir. Əsasən müsəlmanların məskunlaşdığı ölkə müxtəlif etnik qruplar, dinlər və mədəni ənənələr üçün etibarlı sığınacaq rolunu oynamışdır. Burada həmçinin Azərbaycanın tarixi boyunca xristian və yəhudilərin geniş icmaları yaşamışdır. Dünyəvilik və Dövlətin din məsələlərinə cəlb olunmaması qanunla dəstəklənən möhkəm yerli ənənədir.

Azərbaycan prezident sistemi ilə idarə olunur. Azərbaycan Hökuməti səlahiyyətlərin qanunverici, icraedici və məhkəmə hakimiyyəti arasında bölünməsi prinsiplərinə əsaslanır (Konstitusiyanın 7-ci maddəsi). Konstitusiya ilə icraedici hakimiyyətin Prezident tərəfindən, qanunverici hakimiyyətin Azərbaycan Respublikasının parlamenti – Milli Məclis tərəfindən və məhkəmə hakimiyyətinin müstəqil məhkəmələr tərəfindən həyata keçirildiyi müəyyən edilir.

Azərbaycan Cənubi Qafqazda ən böyük və sürətlə inkişaf edən iqtisadiyyata malikdir.[b] Ölkənin üçdə ikisi neft və təbii qazla zəngindir. Ölkə həmçinin regionda ən geniş kənd təsərrüfatı sahəsinə malikdir; Azərbaycanın təxminən 55 faizi kənd təsərrüfatı torpaqlarıdır. Turizm ölkə iqtisadiyyatında mühüm rol oynayır. Azərbaycan həmçinin Şərqi Avropanı Mərkəzi Asiya və Xəzər Dənizi ilə birləşdirən əsas nəqliyyat əlaqələrini təmin edir.

[a] Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi.
[b] The Economy Watch. 2010-cu ildə sürətlə inkişaf edən 12 iqtisadiyyat.

## Vətəndaş cəmiyyəti: Ümumi məlumat

Azərbaycanda müasir qeyri-hökumət təşkilatı (QHT) sektorunun yaradılması 1980-ci illərin sonlarında başlamışdır. Sovet İmperiyasının təqibindən ehtiyat edən insanlar gizlicə bu fəaliyyətlə qoşulur, daha sonra ətraflarındakı eyni düşüncəli insanları cəlb etməyə başlayırdılar. Bakıda yaşayan ziyalılar sosial fəaliyyətlərlə məşğul olmağa meylli olan ilk şəxslər idi. Dağlıq Qarabağın[1] erməni təcavüzü və işğalı ilə xarakterizə olunan faciəli dövrdən xalqı xilas etməyə çalışan ziyalılar öz siyasi iştirak dairələrini genişləndirir, eləcə də müxtəlif sosial təşkilatlar və xeyriyyə cəmiyyətlərini yaradırdılar. SSRİ-nın dağılmasından sonra vətəndaşları təsisatlarda birləşdirən xeyriyyə və mədəniyyət mərkəzləri yarandı. İlk təşəbbüslərdən biri 15 avqust, 1989-cu ildə yaradılmış "*Qarabağa Xalq Yardımı Komitəsi*" olmuşdur; həmin ilin dekabr ayında Azərbaycan Qaçqınlar Cəmiyyəti yaradılmışdır. Hər iki təşkilat Dağlıq Qarabağın müharibədən zərər çəkmiş əhalisi və məcburi köçkün düşənlər üçün maliyyə dəstəyini təmin edirdi. Həmçinin bu Komitə Azərbaycan müstəqil mətbuatının əsasını qoyan "*Azərbaycan*" qəzetini nəşr etmişdir. Bu qəzet alternativ ictimai fikrin təbliğ edilməsində müstəsna rol oynamışdır.

1991-ci ildə Azərbaycan müstəqillik qazandıqdan sonra, vətəndaş cəmiyyəti daha əlverişli şəraitdə inkişaf etmək imkanı əldə etdi. 1995-ci ildə Azərbaycan Respublikasının Konstitusiyası qəbul edildi. Konstitusiya həm dövlətçilik, həm də vətəndaş cəmiyyəti üçün mühüm tarixi sənədə çevrildi. Əslində müasir və beynəlxalq standartlara əsasən yaradılmış və fəaliyyət göstərən QHT-lər yalnız Azərbaycanın müstəqillik qazanmasından sonra, əsasən 1995-ci ildə Konstitusiyanın qəbulundan sonra yaradılmışdır.

2000-ci ildə Qeyri-Hökumət Təşkilatları (ictimai birliklər və fondlar) haqqında Azərbaycan Respublikasının Qanunu qəbul edildi və bu qanunla milli QHT platforması, Milli QHT Forumu (MQF) yaradıldı. Azərbaycanda milli donor təsisatının yaradılması üçün Hökumət, QHT-lər və ekspertlərin səyləri gücləndirildi, bu da Azərbaycan Respublikasının Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurası oldu.

Avrasiyada Sosial Hərəkat və Yenilənmə üçün Təşəbbüs (İSAR) – Azərbaycan, Avrasiya Fondu, Açıq Cəmiyyət İnstitutu Yardım Fondu (ACİYF-Azərbaycan), Counterpart İnternational və digərləri kimi beynəlxalq təşkilatlar peşəkar sosial xidmətlər

Asian Development Bank

### Azərbaycanda QHT sisteminə baxış[a]

- Qeydiyyatdan keçmiş qeyri-hökumət təşkilatları (QHT-lər) – təxminən 2 700 (İyun, 2011)
- Fəal QHT-lər – təxminən 1 200 (İyun, 2011)
- QHT-lər tərəfindən təmin olunan daimi məşğulluq – 4 000 nəfər
- QHT-lər tərəfindən təmin olunan müvəqqəti məşğulluq – 3 000 n-dən çox
- Üzvlər və könüllülər – 500 000 nəfər
- QHT fəaliyyətlərindən faydalananlar – 1 900 000 nəfər

[a] Azərbaycan Respublikasının Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurası.

təklif edən yerli, regional, milli və beynəlxalq QHT-ləri yaratmaq üçün səylərini birləşdirdilər. Onların yaratdığı vətəndaş cəmiyyəti təşkilatları artıq bu günkü Azərbaycan cəmiyyətində üçüncü sektor kimi təmsil edilmək iqtidarında oldu.

Hazırda QHT-lər ölkədə həyata keçirilən böyük layihələrə töhfələr verməklə ölkənin siyasi və sosial-iqtisadi həyatında fəal rol oynayırlar, buraya Mədən Sənayelərində Şəffaflıq Təşəbbüsü vasitəsilə Bakı-Tbilisi-Ceyhan boru kəməri və Yoxsulluğun Azaldılması və İqtisadi İnkişaf üzrə Dövlət Proqramına cəlb olunma daxildir.

2011-ci ilin iyun ayına olan məlumata görə təxminən 2 700 QHT rəsmi qeydiyyatdan keçmişdir,[2] buna baxmayaraq, bunlardan təxminən 1 200 QHT fəal deyil. QHT-lərin çoxu Bakıda fəaliyyət göstərir. Şəhər mərkəzlərindən kənarda QHT-lər çox fəal deyillər və kənd yerlərində yerləşən QHTlər daha az xidmətlər təmin edir və maliyyələşdirmə ilə bağlı xeyli məhdudiyyətləri var. Ümumiyyətlə, QHT-lər Azərbaycanın hüquqi və sosial-iqtisadi inkişafına cəlb olunur. QHT-lər əsasən ölkədə vətəndaş cəmiyyətinin formalaşdırılması, demokratik və hüquqi dövlətin qurulması, Azərbaycanın qlobal məsələlərə inteqrasiyası, insan hüquqlarının, sosial-iqtisadi və milli-mənəvi dəyərlərin qorunması və qaçqınlar və məcburi köçkün düşmüş şəxslərin problemlərinin həllinə kömək edir. QHT-lər həmçinin Azərbaycanın dünya birliyinə inteqrasiyası və Azərbaycanın ərazi bütövlüyünün bərpasını və suverenliyini dəstəkləyir.

Müəyyən sahələrdə inkişaf olsa da, QHT sektoru hələ də çətinliklərlə üzləşir. QHT-lərin əksəriyyəti beynəlxalq donorlar tərəfindən maliyyələşdirmədən asılıdır, buna baxmayaraq, çoxu öz maliyyələşdirmə mənbələrini dəyişdirmək üçün ciddi səylər edir. 2007-ci ildə yaradılmış QHT-lərə Dövlət Dəstəyi Şurası beynəlxalq qabaqcıl təcrübələrin qəbul edilməsi üzrə xarici təşkilatlarla əməkdaşlıq etmək üçün səy nümayiş etdirir və müxtəlif

**2011-ci ilin iyun ayına olan məlumata görə təxminən 2 700 QHT rəsmi qeydiyyatdan keçmişdir, buna baxmayaraq, bunlardan təxminən 1 200 QHT fəal deyil. QHT-lərin çoxu Bakıda fəaliyyət göstərir. Şəhər mərkəzlərindən kənarda QHT-lər çox fəal deyillər və kənd yerlərində yerləşən QHTlər daha az xidmətlər təmin edir və maliyyələşdirmə ilə bağlı xeyli məhdudiyyətləri var.**

donorlardan əsaslı texniki yardım alır. Fəaliyyətinin 2008–2011-ci illərində Şura müsabiqə əsasında təxminən 600 QHT-yə təxminən ümumi 10 milyon ABŞ dolları məbləğində qrant yardımı ayırmışdır. QHT-lərə dövlət dəstəyinin prioritet sahələrinə sağlamlığın qorunması, gənclərin inkişafı, təhsil, kənd yerlərində inkişaf, və qaçqınlar və məcburi köçkün düşmüş şəxslərin dəstəklənməsi daxildir.

Qeydiyyatdan keçmiş QHT-lərlə yanaşı Azərbaycanda həmçinin qeydiyyatdan keçməmiş QHT-lər də fəaliyyət göstərir. Bu qeydiyyatdan keçməmiş QHT-lərin çoxu kənd yerlərində yerləşir. Onların qeydiyyatsız olmalarının əsas səbəblərindən biri bilik bazalarının zəif olmasıdır. Maliyyə və texniki dəstəyin çatışmazlığı Azərbaycanın kənd yerlərində xüsusilə vacib olan bu sektoru tədricən zəiflətmişdir. Kənd yerlərində yerləşən QHT-lərin maliyyə dəstəyinə ehtiyacı var, lakin bundan daha da vacibi onların təşkilati inkişafda yardıma ehtiyacı olmasıdır. Maliyyələşdirməyə məhdud əlçatanlıq və ümumi zəif idarəetmə təcrübələri nəticəsində durğunluq vəziyyətində olan kənd QHT-ləri öz cəmiyyətləri üçün daha çox tələb olunan sosial, təhsil və müdafiə xidmətlərini təmin edə bilmir, bu isə öz növbəsində gələcək regional inkişafı kökündən zəiflədir.

MQF ölkə ərazisində paylanmış, Şirvan, Quba, Qəbələ, Şəmkir və Mingəçevirdə beş QHT Resurs və Təlim Mərkəzi (QRTM) vasitəsilə QHT-lərin əməkdaşları üçün potensial imkanların artırılması fəaliyyətlərini təmin edir.



## Hökumət–Vətəndaş Cəmiyyəti Əlaqələri

2000-ci ildə Qeyri-Hökumət Təşkilatları (QHT-lər) (ictimai birliklər və fondlar) haqqında Azərbaycan Respublikasının Qanunu ilə QHT-lər və Hökumət arasında əlaqələrdə yeni mərhələ başladı. Qanunda QHT-lərin hüquqlarının dövlət müəssisələri tərəfindən müdafiə edilməsi nəzərdə tutulur. Qanunda həmçinin dövlət müəssisələri tərəfindən QHT-lərə göstərilən maliyyə və digər yardımlar nəzərə alınır.

Son dövrlərdə Azərbaycanda QHT-lərin fəaliyyətinin inkişafı üçün müxtəlif hüquqi aktlar qəbul edilmişdir. Bunlar arasında Azərbaycan Respublikasında qeyri-hökumət təşkilatlarına dövlət dəstəyi konsepsiyasının Təsdiqi haqqında Azərbaycan Respublikası Prezidentinin 27 iyul, 2007-ci il tarixli (2 288 saylı Sərəncam) Fərmanı xüsusilə

**2000-ci ildə Qeyri-Hökumət Təşkilatları (QHT-lər) (ictimai birliklər və fondlar) haqqında Azərbaycan Respublikasının Qanunu ilə QHT-lər və Hökumət arasında əlaqələrdə yeni mərhələ başladı. Qanunda QHT-lərin hüquqlarının dövlət müəssisələri tərəfindən müdafiə edilməsi nəzərdə tutulur.**



əhəmiyyətlidir. Bu Sərəncam və əlaqədar Konsepsiya QHT-lər istiqamətində münasibətlərin dəyişməsi, və vətəndaş cəmiyyəti haqqında yeni siyasi və hüquqi şərtlərin müəyyən edilməsinin əsasını qoymuşdur. Azərbaycanın dövlət təşkilatları bir qayda olaraq konsepsiya sənədlərini hazırlayır ki, bunlar da ümumi planlaşdırma və istiqamətləndirmə sənədləridir.

Konsepsiya ümumilikdə aşağıdakılardan ibarət olmuşdur:

- Azərbaycan Respublikasında qeyri-hökumət sektorunun vəziyyətinin təhlili;
- QHT-lərə dövlət dəstəyinin əsas prinsip və formaları;
- QHT-lərə dövlət dəstəyinin prioritet sahələri;
- QHT-lərə dövlət dəstəyinin təmin edilməsinin əsas vasitələri;
- Dövlət orqanları və vətəndaş cəmiyyəti institutları arasında əməkdaşlıq mexanizmlərinin təkmilləşdirilməsi;
- Problemlərin həll edilməsi məqsədini daşıyan ünvanlı proqramlar, layihələr və fəaliyyətlər üçün dövlət tərəfindən maliyyələşdirmənin həyata keçirilməsi üçün şərtlər.

Konsepsiyaya uyğun olaraq, QHT-lər üçün Dövlət dəstəyinin beş növü var:

- *Məlumat dəstəyi* (Azərbaycanda QHT sektorunun inkişafı haqqında kütləvi informasiya vasitələri, xüsusi rubrikaların yaradılması, radio və televiziya verilişləri vasitəsilə sosial məsələlərin həll edilməsində QHT sektorunun fəaliyyətinin işıqlandırılması nəzərdə tutulur.)
- *Konsultativ dəstək* (qanunverici və digər hüquqi-normativ aktların təfsiri, eləcə də dövlət dəstəyinin əldə



edilməsi üçün imkanlar, ölkədə mövcud olan QHT-lər və digər vacib məsələlər haqqında məsləhətlə ifadə olunur.)

- *Metodiki dəstək* (metodiki tövsiyələr, materiallar, informasiya kitabçaları və digər vasitələrin işlənib hazırlanması ilə həyata keçirilir.)
- *Təşkilati dəstək* (QHT-lər ilə birlikdə sosial problemlərin həll edilməsi üzrə "dəyirmi masaların", seminarların, konfransların, təlimlərin və digər tədbirlərin təşkili vasitəsilə təmin edilir.)
- *Maliyyə dəstəyi* (dövlət büdcəsinin vəsaiti vasitəsilə cəmiyyət üçün əhəmiyyətli olan problemlərin həll edilməsinə yönəldilmiş ünvanlı proqramlar, layihələr və tədbirlərin maliyyələşdirilməsini nəzərdə tutur.)

Azərbaycan Respublikasının Prezidenti Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının yaradılması haqqında 13 dekabr, 2007-ci ildə Fərman imzalamışdır. Bu Fərmana əsasən, QHT-lərə Dövlət Dəstəyi Şurası yaradılmış və Əsasnaməsi təsdiq edilmişdir. Azərbaycan Respublikası Prezidentinin 16 aprel, 2008-ci il tarixli Sərəncamına əsasən, QHT-lərə Dövlət Dəstəyi Şurasının 3 nəfər dövlət orqanlarının və 8 nəfər QHT-lərin nümayəndələrindən ibarət olan strukturu təsdiq edilmişdir.

Ümumiyyətlə, Azərbaycan Hökuməti əhalinin müdafiəyə daha çox ehtiyacı olan qruplarına sosial xidmətlərin göstərilməsində və yaxşı idarəçiliyin inkişaf etdirilməsində vətəndaş cəmiyyətinin rolunun fəal olmasını nəzərdə tutur. Azərbaycan Respublikasında 2008–2015-ci illər üçün Yoxsulluğun Azaldılması və Davamlı İnkişaf haqqında Dövlət Proqramında (YADİDP) YADİDP-nın həyata keçirilməsi müddətində "yerli problemlərin həll edilməsində ictimaiyyətin rolunun artırılması və ictimaiyyətin inkişafının dəstəklənməsi kimi mühüm proseslərdə" QHT-lərin daha böyük rolunun olması xüsusilə qeyd edilir.



1998–2009-cu illərdə QHT-lər 17 müxtəlif istiqamətdə 40-dan artıq tədbirlə 13 Dövlət proqramının həyata keçirilməsində iştirak etmişlər. Buraya aşağıdakılar daxildir:

- Avropa Sosial Xartiyasının Normalarının Tətbiqi haqqında Dövlət Proqramı
- Azərbaycanda Ədliyyə Sisteminin İnkişafı haqqında Dövlət Proqramı
- Azərbaycan Gəncləri üçün Dövlət Proqramı
- Azərbaycan Kinosunun İnkişafı üzrə Dövlət Proqramı
- Azərbaycan Respublikasında Demoqrafiya və Əhalinin Məskunlaşmasının İnkişafına dair Dövlət Proqramı
- Dövlət Uşaq Təşkilatlarından olan Uşaqların ailə və alternativ qayğı ilə Təmin edilməsi üzrə Dövlət Proqramı
- Azərbaycan Respublikasında Məşğulluq Strategiyasının Həyata keçirilməsi üzrə Dövlət Proqramı
- Dövlət Anti-Korrupsiya Proqramı
- Narkotik Vasitələrin, Psixotrop Maddələrin və Prekursorların Qeyri-qanuni Dövriyyəsi, narkotik Vasitələrin Yayılması ilə Mübarizə üzrə Dövlət Proqramı
- Qaçqın və Məcburi köçkünlərin Problemlərinin Həll edilməsi üzrə Dövlət Proqramı
- İstedadlı Uşaqlarda (Gənclərdə) Yaradıcılığın İnkişafı üzrə Dövlət Proqramı
- Şəkərli Diabet üzrə Dövlət Proqramı
- Azərbaycan Respublikasında Yoxsulluğun Azaldılması və Davamlı İnkişaf haqqında Dövlət Proqramı

## Vətəndaş cəmiyyəti üçün hüquqi çərçivə

Azərbaycanda QHT-lərə təsir edən hüquqi çərçivə həm QHT-lərin yaradılması, həm də fəaliyyətlərini istiqamətləndirir. Belə ki, QHT-lərin yaradılması və fəaliyyətləri üçün əlverişli və səmərəli hüquqi çərçivə ölkədə üçüncü sektorun inkişafının əsas şərtlərindən biri kimi qiymətləndirilir.

Son dövrlərdə Azərbaycanda QHT-lər üçün hüquqi çərçivə inkişaf etdirilmişdir. Bir çox çatışmazlıqların olmasına baxmayaraq, mövcud qanunvericilik müsbət olaraq xarakterizə edilə bilər. Hazırda, bu sahəni bir neçə sənəd, o cümlədən Konstitusiya, Mülki Məcəllə, QHT-lər (ictimai birliklər və fondlar) haqqında Qanun, hüquqi şəxslərin dövlət qeydiyyatı və reyestri haqqında Qanun, Qrantlar haqqında Qanun, Könüllülük fəaliyyəti haqqında Qanun, Azərbaycan Respublikası Prezidentinin müvafiq fərman və sərəncamları, eləcə də bu sahəni idarə edən digər normativ hüquqi sənədlər idarə edir. Eyni zamanda Konstitusiyaya əsasən həmçinin bir sıra beynəlxalq hüquqi sənədlər QHT-lərin hüquqi çərçivəsinin əsasını təşkil edir. Bu beynəlxalq aktlara İnsan Hüquqları haqqında Ümumi Bəyannamə, Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt, İnsan Hüquqları və Əsas Azadlıqlarının Qorunması üzrə Avropa Konvensiyası və s. daxildir.

## QHT-lərin vergi münasibətləri

Qanunvericiliyə uyğun olaraq, qeyri-kommersiya təşkilatları[3] (QKT) tərəfindən əldə edilən gəlirin üç növü Vergi Məcəlləsi əsasında vergidən azaddır: xeyriyyə pul köçürmələri, üzvlük haqları və ianələr. Bu gəlir növləri Vergi Məcəlləsi çərçivəsində müəyyən edilmir. Bundan başqa, Azərbaycanın Mülki Məcəlləsində "ianələr" müəyyən edilmir.

Dördüncü gəlir növü – qrantlar təcrübədə gəlir vergisindən azaddır, baxmayaraq ki, Vergi Məcəlləsində qrantlar xüsusi olaraq vergidən azad edilmir. Qrantlar haqqında Qanuna əsasən, "qrant" dövlət və cəmiyyət üçün faydalı olan layihələrin hazırlanması və həyata keçirilməsi üçün Qrantlar haqqında Qanunda nəzərdə tutulan prosedur əsasında təmin edilən məqsədli, təmənnasız, geri ödənilməyən yardım kimi təsvir edilir. Qrantı almaq hüququna malik olmaq üçün yerli hüquqi şəxsin əsas nizamnamə məqsədlərində aşağıdakılardan biri qeyd edilməlidir: (i) xeyriyyə fəaliyyəti; və ya (ii) qrant almaq üçün uyğun olan – qrantdan birbaşa gəlir etmək məqsədini daşımayan layihələr və proqramların həyata keçirilməsi. Qrantlar haqqında Qanunun əvvəlki variantında qrantlar gəlir vergisindən azal edilirdi, lakin cari qanunda qeyd edilir ki, "….. qrant, və ya digər maddi yardımın alınması ilə əlaqədar vergi məsələləri Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə tənzimlənir". Vergi məcəlləsində qrantlar xüsusi olaraq vergidən azad edilmədiyindən, (və vergi qoyuluşu və vergi nəzarəti ilə əlaqədar məsələlərin digər qanunverici aktlara daxil edilməsi istisna olunduğundan) belə nəticəyə gəlmək olar ki, qrantların vergidən azad edilməsi qaydası Vergi Məcəlləsində istifadə edilən "ianələr" ifadəsinin qrantları əhatə etməsi anlayışına əsaslanır.[4]

Sahibkarlıq fəaliyyətindən əldə edilən gəlir istisna olmaqla, xeyriyyə təşkilatları[5] tərəfindən əldə edilən bütün gəlirlər vergidən azaddır. Vergi Məcəlləsinə əsasən qeyri-kommersiya təşkilatlarının sahibkarlıq fəaliyyətlərindən əldə edilən gəlirdən vergi tutulur. Vergi Məcəlləsi sahibkarlıq fəaliyyətinin həyata keçirilməməsi və ya əlaqədar olmayan fəaliyyətlər üzrə digər gəlir növlərini (ianələr, haqlar və s.) vergidən azad etmir.

Azərbaycanın Vergi Məcəlləsində 18 faizli vahid əlavə dəyər vergisi (ƏDV) müəyyən edilir. Sıfır norması Vergi Məcəlləsinin 165-ci Hissəsində sadalanan sövdələşmələrə tətbiq edilir, buraya digərləri ilə yanaşı "xaricdən alınan təmənnasız maliyyə yardımı (qrantlar) ilə *[maliyyələşdirilən] malların alınması, işlərin həyata keçirilməsi və xidmətlərin təmin edilməsi, eləcə də qeyd edilənlərin idxalı" daxildir.* Sıfır ƏDV norması yalnız xarici qrantlara tətbiq edilir.

## QHT-lər üçün Qeydiyyat Tələbləri

Qeyri-Hökumət Təşkilatları (QHT-lər) (ictimai birliklər və fondlar) haqqında Azərbaycan Respublikasının Qanunu ictimai təşkilatlar və fondların yaradılmasını və fəaliyyətini tənzimləyir. Qanun qeyri-hökumət təşkilatlarının yaradılması, fəaliyyəti, yenidən qurulması və ləğv edilməsi üçün qaydaları müəyyən edir və onların fəaliyyətləri, idarəçiliyi və hökumət orqanları ilə əlaqələrini təyin edir. Qanuna uyğun olaraq QHT-lərin dövlət qeydiyyatından yalnız aşağıdakı hallarda imtina edilə bilər:

- Eyni ad altında mövcud olan digər qeyri-hökumət təşkilatı olduqda; və ya
- Dövlət qeydiyyatı üçün təqdim edilmiş sənədlər Konstitusiya, Azərbaycan Respublikasının qanunları ilə ziddiyyət təşkil etdikdə və ya həmin sənədlərdə saxta məlumat olduqda.

Ədliyyə Nazirliyinin nəzdində Hüquqi Şəxslərin Qeydiyyat Departamenti QHT-lərin qeydiyyatı üçün məsuliyyət daşıyır. Qeyri-kommersiya hüquqi şəxslərinin qeydiyyatdan keçirilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə (və ya birliklər və həmkarlar ittifaqlarının qeydiyyatı üçün Ədliyyə Nazirliyinin müvafiq regional bölməsinə), və ya yurisdiksiya ilə əlaqədar olaraq, Naxçıvan Respublikasının Ədliyyə Nazirliyinə müraciət etmək lazımdır.

Qeyri-Hökumət Təşkilatları (ictimai birliklər və fondlar) haqqında Qanuna Milli Məclis tərəfindən 30 iyun, 2009-cu ildə qəbul edilmiş düzəlişlərdə qeyd edilir ki, QHT-lərin

filialları və xarici QHT-lərin nümayəndəliklərinin qeydiyyatı həmin təşkilatlarla imzalanmış saziş əsasında həyata keçirilə bilər.

## Çətir və əlaqələndirici orqanlar

Azərbaycanda QHT koalisiyalarının diqqəti əsasən vətəndaş cəmiyyətinin ümumi imkanlarını gücləndirmək üçün resursların səfərbər edilməsinə yönəldilmişdir. QHT koalisiyaları yerli hökumət fəaliyyətləri, genderlə əlaqədar siyasət və proqramlar, təhsil islahatları, büdcə məsələləri, tənzimləyici islahatlar, kommunal təsərrüfat və məişət problemləri və kənd təsərrüfatı və ətraf mühit məsələlərinin monitorinqi vasitəsilə yerli ictimai xidmət təchizatında islahatlara kömək etməkdə fəal rol oynayır. Son 10 ildə şəhər və kənd yerlərindən müxtəlif QHT-lərin iştirakı ilə Azərbaycanda 17 müxtəlif koalisiya yaradılmışdır. Azərbaycanda ən böyük və ən fəal QHT koalisiyası MQF-dur (Milli QHT Forumu). 1999-cu ildə formalaşdırılmış MQF 533 yerli QHT-ni bir araya gətirir və əlaqələndirir.[6] Bəzi əsas koalisiyalar haqqında informasiya aşağıda verilir:

1999-cu ildə təsis edilmiş Azərbaycan MQF Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı və Azərbaycan Hökuməti arasında əməkdaşlıq nəticəsində yaranmışdır. O, QHT-ləri informasiya, konsultativ, texniki və təşkilati yardımla təmin etməklə, Azərbaycanda vətəndaş cəmiyyətinin qurulmasının yeni mərhələsinin əsasını qoymuşdur. MQF yerli QHTlərin fəaliyyətlərini əlaqələndirən və şəbəkə yaradan və istənilən fövqəladə vəziyyətə cavab verən QHT-dir. O, təşkilati inkişaf bacarıqlarının bütün aspektləri üzrə yerli QHT-lərə təlim keçir, eləcə də, yerli QHT-ləri müxtəlif forumlardan təmsil etmək üçün yerli QHT-lərin dövlət, yerli və beynəlxalq donorlar, texniki təsisatlar, və özəl agentliklərlə əlaqələndirilməsinə yardım edir. MQF həmçinin yerli QHT-lərin hüquqi və dayanıqlı şəraitdə inkişaf etməsi üçün imkanlar yaradan mühitin təmin edilməsində kömək edir.

**Milli QHT Forumu**
Azərbaycan, Bakı, m. Elmlər Akademiyası,
H.Cavid prospekti 33A
Tel +994 12 510 7601/510 1553
www.mqfxeber.az

Mədən Sənayelərində Şəffaflıq Təşəbbüsü (MSŞT) 2002-ci ilin sentyabr ayında Yohannesburqda Dayanıqlı İnkişaf üzrə Dünya Sammitində Birləşmiş Krallığın Baş Naziri Toni Bleyr tərəfindən yaradılmışdır. MSŞT-nün məqsədi "mədən sektorunun resurslarından ciddi asılı olan ölkələrdə mədən sektorunda ödəniş və gəlirlər üzərində şəffaflığı artırmaqdır". Azərbaycan Hökuməti təşəbbüsün yaradılmasından sonra onu dəstəklədiyini qeyd etmiş və ölkə səviyyəsində MSŞT-də iştirak etməyə hazır olduğunu göstərmişdir.[7]

2004-cü il 13 may tarixində 30-dan artıq Azərbaycan QHT memorandum imzalamış və ölkənin təbii ehtiyatlarının istismarı və onların səmərəli istifadəsi vasitəsilə əldə edilmiş gəlirlər üzərində dövlət nəzarətini təmin etmək məqsədilə Mədən Sənayelərində Şəffaflığın Yaxşılaşdırılması üçün Koalisiyanın yaradılmasını elan etmişlər.

**Mədən Sənayelərində Şəffaflığın Artırılması Koalisiyası**
Azərbaycan, Bakı,
Cəfər Cabbarlı küçəsi 95/44,
Caspian Plaza 3,9-cu mərtəbələr
Tel +994 12 437 1320
www.eiti-az.org

Uşaq Hüquqları üzrə Azərbaycan QHT Alyansı Azərbaycan uşaqlarının səsinin daha güclü olması və eşidilməsini təmin etmək üçün ölkədə Azərbaycan uşaqları ilə və onlar üçün işləyən yerli QHT-lər və uşaq və gənclər qruplarının milli koalisiyasıdır. Proqram və fəaliyyətləri vasitəsilə Alyans demək olar ki ölkənin bütün bölgələrini əhatə edir. İşin əsas prioritet sahələrinə uşaq hüquqlarının müdafiəsi, uşaq təhsil hüquqları, uşaqların səhiyyə, sosial və mədəni hüquqları xüsusi ehtiyacları və əlilliyi olan uşaqlar, uşaq əməyi, uşaq alveri, uşaqlara qarşı zorakılıq, uşaqların istismarı və cinsi istismarı daxildir.

**Uşaq Hüquqları üzrə Azərbaycan QHT Alyansı**
Azərbaycan, Bakı,
Nizami küçəsi 59/117
Tel +994 12 493 2142
www.ngoalliance.net

Azərbaycan Respublikasının Gənclər Təşkilatları Milli Şurası (NAYORA) gənclərlə bağlı fəaliyyət göstərən əsas QHT və Azərbaycan gənclərinin yeganə koordinasiya qurumudur. NAYORA 21 noyabr 1995-ci ildə 12 gənclər təşkilatı tərəfindən yaradılmış və 31 yanvar 1996-cı ildə Ədliyyə Nazirliyi tərəfindən qeydiyyata alınmışdır. Əsas məqsədlərə gənclər təşkilatlarının işinin əlaqələndirilməsi; milli əhəmiyyət daşıyan məsələlər üzrə gənclər arasında həmrəyliyin əldə edilməsi; gənclər QHT-lərinin yaradılması və inkişafına dəstək və gəncləri Azərbaycanda demokratik proseslərdə fəal iştirak etməyə həvəsləndirmək; gənclərin problemlərinin həlli və onların hüquqlarının müdafiəsi; beynəlxalq gənclər qurumu və digər təşkilatlarla əməkdaşlığın inkişaf etdirilməsi və digər fəaliyyətlər daxildir.

**Azərbaycan Respublikasının Gənclər Təşkilatları Milli Şurası (NAYORA)**
Azərbaycan, Bakı,
Olimpiya küçəsi 66/14
Tel +994 12 564 9014
www.nayora.az




Vətəndaş Nəzarəti Şəbəkəsinin əsas prinsiplərindən biri vətəndaş cəmiyyətinin bilik və bacarıqlarını təkmilləşdirmək və onu mədən sənayesində işləyən şirkətlər və əlaqədar dövlət qurumları ilə səmərəli və bərabər hüquqlu dialoq üçün hazırlamaqdır. Dialoq mədən sənayesi ilə əlaqədar problemlərin həllinə nail olmaq, başqa sözlə problemlərin səmərəli həllinə nail olmaq üçün qurulur. Əsas məqsəd mədən sənayesinin təsir etdiyi sahələrdə mülki fəaliyyəti artırmaq və ictimaiyyətin səfərbərliyi ilə mülki nəzarət mexanizmlərini yaratmaqdır.

**Vətəndaş Nəzarəti Şəbəkəsi**
Azərbaycan, Bakı,
Həsən Əliyev küçəsi 58/117a
Tel +994 12 564 3474 / 564 3475
www.crn.az

## Vətəndaş Cəmiyyəti üzrə Bələdçi

Azərbaycanda vətəndaş cəmiyyəti haqqında informasiya QHT-lərə Dövlət Dəstəyi Şurası tərəfindən yenilənmiş vəziyyətdə saxlanılır, Şura dəstək, informasiya və müsabiqə prosesi vasitəsilə maliyyələşdirməyə əlçatanlıq üçün Azərbaycanda bütün qeydiyyatdan keçmiş QHT-lər üçün açıqdır.

Şuranın əsas məqsədləri vətəndaş cəmiyyətinin gücləndirilməsi və dayanıqlı inkişafa nail olmaq; hökumət və QHT-lər arasında körpü rolunu oynamaqla onlar arasında sıx əməkdaşlığın dəstəklənməsi; və sosial problemlərin həllində QHT-lərin cəlb edilməsidir.

MQF həmçinin 2010-cu ildə sayı 533 olan üzv təşkilatlarının soraq kitabçasını tərtib etmişdir. QHT-lərin



onlayn soraq kitabını görmək üçün www.azerweb.com/en/sectors.php linkinə daxil olun.

**Azərbaycan Respublikasının Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurası**
Azərbaycan, Bakı,
Fikrət Əmirov küçəsi 1
Tel +994 12 493 1581/493 1780/493 1732
www.cssn.gov.az

**Milli QHT Forumu**
Azərbaycan, Bakı, m. Elmlər Akademiyası, H. Cavid prospekti 33A
Tel +994 12 510 7601/510 1553
www.mqfxeber.az

## Azərbaycanda Vətəndaş Cəmiyyətinin Güclü və Zəif Cəhətləri

Son illərdə özlərini idarə etmək və öz işlərini strukturlu təşkil etmək qabiliyyətinə malik olan QHT-lərin sayı artmışdır. QHT-lərin çoxu öz daxili idarəçiliyində struktur dəyişikliyi etmiş və beynəlxalq qabaqcıl təcrübələri qəbul etmişdir, baxmayaraq ki, bu əvvəlcə donor tələbləri ilə idarə olunurdu.

QHT-lərin çoxu tam müəyyən edilmiş məqsədlər üzərində diqqəti cəmləyir, bəziləri isə qrantları təmin etmək üçün öz əsas diqqət sahələrindən kənar fəaliyyətlərlə məşğul olmanı davam etdirirlər. Bəzi QHT rəhbərləri strateji idarəetmə ilə bağlı lazımı təlim keçmədiyindən və yalnız qısa müddətli fəaliyyətlər üçün plan qura bildiklərindən, QHT-lər hələ də strateji planlaşdırmada zəifdirlər.

QHT-lərin çoxu əsas ofis avadanlığına daimi əlçatanlığa malikdirlər, buna baxmayaraq, kəndlərdə yerləşən təşkilatlar bununla bağlı hələ də çətinliklərlə üzləşir. QHT-lərin çoxu öz məlumat vermə imkanlarını təkmilləşdirmişdir və artıq veb saytları və tez-tez keçirilən ictimai təqdimatlar vasitəsilə öz proqramları haqqında geniş informasiya təmin edirlər. Yalnız bir neçə QHT öz maliyyə bəyanatlarını ictimaiyyətə açıqlayır.

QHT fəaliyyətlərində könüllülər işə götürülür və geniş miqyasda işə cəlb edilir. Az sayda QHT daimi işçi heyətini işə götürmək imkanına malikdir. QHT-lərin çoxu öz cari layihələri və qrantların birbaşa tələbləri əsasında işçiləri işə götürür. Uzunmüddətli donor dəstəyini təmin etmiş bəzi QHTlər kadr dövriyəsini azaldır, lakin hələ də yüksək əmək haqqı və karyera inkişafı imkanlarına görə beynəlxalq təşkilatlar, səfirliklər və ya özəl şirkətlərdə işləmək üçün işdən çıxan işçilərlə problemlər yaşayırlar.

## Vətəndaş Cəmiyyətinin Maliyyələşdirilməsi

QHT-lər (ictimai birliklər və fondlar) haqqında Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, Hökumət QHT-ləri maliyyə və digər dəstəklə təmin edə bilər. QHT-lərə dövlət dəstəyi məlumat, konsultasiyalar, metodologiya, təşkilati-texniki dəstək, qrantlar və s. vasitəsilə təmin edilə bilər. Azərbaycan Respublikası Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurası QHT-lər üçün qrantları təmin edir.

Azərbaycan Respublikasının Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının verdiyi məlumata görə, 2010-cu ildə 352 yerli QHT layihəsi (QHT-lər tərəfindən təqdim edilmiş 845 layihə təklifindən) maliyyələşdirilmişdir.

**QHT-lərə Dövlət Dəstəyi Şurası tərəfindən QHT-lərə maliyyə dəstəyi**

| İl | Layihələrin sayı | Maliyyələşdirmə məbləği (ABŞ dolları ilə) |
|---|---|---|
| 2008 | 191 layihə | 1 518 987 |
| 2009 | 248 layihə | 2 617 722 |
| 2010 | 352 layihə | 2 683 544 |
| 2011 (Yan–İyun) | 263 layihə | 2 287 038 |
| **Total** | **1 055 layihə** | **9 107 291** |

QHT-lər = qeyri-hökumət təşkilatları.

Mənbə: Azərbaycan Respublikasının Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurası.

Müxtəlif layihələrə ayrılmış vəsaitlərin ümumi dəyəri 2 683 544 ABŞ dollarından artıq olmuşdur. Layihələr əsasən ictimai, sosial, ətraf mühit və mədəniyyət aspektlərini və Azərbaycan cəmiyyətinin problemlərini əhatə etmişdir.

Lakin QHT-lərin çoxu hələ də bütün büdcələri həcmində xarici donorlardan asılıdırlar. ACİYF-Azərbaycan; ABŞ Beynəlxalq İnkişaf Agentliyi; Avropa Komissiyası bir neçə iki tərəfli (Norveç, Britaniya, Alman, Danimarka, İsveçrə və s.) və çox tərəfli (Dünya Bankı) təşkilatlar Azərbaycanda ən fəal donorlar arasındadırlar.

## Azərbaycanda AİB–Vətəndaş Cəmiyyəti Əməkdaşlığı

2000-ci ildən 2006-cı ilə kimi Asiya İnkişaf Bankı yoxsulluq haqqında məlumatların toplanması və təhlilini yaxşılaşdırmaq və hökuməti yoxsulluğun azaldılması üzrə milli strategiyanın hazırlanmasında dəstəkləmək üçün Azərbaycan Hökumətinə texniki yardım göstərmişdir. Texniki yardımın məqsədi strategiyanın həyata keçirilməsi prosesində tərəflərin geniş iştirakını təmin etməklə, 2003–2005-ci illər üçün Yoxsulluğun Azaldılması və İqtisadi İnkişaf üzrə Dövlət Proqramının hökumət tərəfindən həyata keçirilməsini dəstəkləməkdən ibarət olmuşdur.

Texniki yardımın əhatə dairəsinə (i) YAİİDP strategiyasında siyasət tədbirlərinin həyata keçirilməsinin monitorinqinin daxil olduğu mandatını həyata keçirmək qabiliyyətinə malik olan YAİİDP-nın yaradılmasına dəstək; (ii) qaçqın və məcburi köçkünlərə yardım, ticarət və yoxsulluq, sosial inkişaf və yoxsulluq, ətraf mühit və yoxsulluq, və makro-iqtisadi məsələlər kimi sahələrdə çarpaz dəstəyin təmin edilməsi; (iii) YAİİDP katibliyi heyətinin xüsusilə zəif büdcə tərtibatı, yoxsulluğun təhlili üzrə standart metodlar və təlim ehtiyaclarının qiymətləndirilməsində müəyyən edilmiş digər sahələrdə bacarıqlarını gücləndirmək üçün təlim prqoramına dəstək (iv) siyasəti tərtib edənlər və vətəndaş cəmiyyəti arasında dialoqu davam etdirmək və YAİİDP strategiyasının həyata keçirilməsinin vacibliyi

**Azərbaycan Respublikasının Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının verdiyi məlumata görə, 2010-cu ildə 352 yerli QHT layihəsi (QHT-lər tərəfindən təqdim edilmiş 845 layihə təklifindən) maliyyələşdirilmişdir. Müxtəlif layihələrə ayrılmış vəsaitlərin ümumi dəyəri 2 683 544 ABŞ dollarından artıq olmuşdur.**

haqqında tərəflərin məlumatlılığını artırmaq məqsədilə regional seminarlar və görüşlərin təşkil edilməsi üçün yardım vasitəsilə iştirak prosesinə dəstək daxildir.

Yerli QHT-lər MQF vasitəsilə regional seminarlar və görüşlərin təşkili prosesi, kənd və şəhər yerlərində ictimaiyyətin səfərbərliyi, proqram təbliğatı və digər fəaliyyətlərə cəlb ediliblər.

Aşağıdakı tapşırıqlar bu texniki yardıma əsasən MQF tərəfindən həyata keçirilib:

| | |
|---|---|
| **Təyinatın adı:** | "Yoxsulluğun Aradan qaldırılması strategiyası üzrə Texniki Yardım" haqqında seminarın təşkili |
| **Vaxt çərçivəsi:** | Noyabr 2000 |
| **Büdcə:** | 4 000 ABŞ dolları |

| | |
|---|---|
| **Təyinatın adı:** | YAİİDP-da QHT və ictimaiyyətin İştirakının artırılmasına Yardım |
| **Vaxt çərçivəsi:** | May 2004–Yanvar 2005 |
| **Büdcə:** | 18 485 ABŞ dolları |

## Haşiyələr

1 Həmçinin Dağlıq (Naqorno) Qarabağ kimi məlumdur.

2 Bax Haşiyə 5.

3 Azərbaycan Respublikasının Vergi Məcəlləsinə uyğun olaraq "Qeyri-kommersiya fəaliyyəti məqsədi gəlir yaratmaq olmayan hüquqi fəaliyyətin həyata keçirilməsidir." Qeyd etmək lazımdır ki, qeyri-kommersiya təşkilatı və qeyri-hökumət təşkilatı Azərbaycanda bir-birini əvəz edən ifadələr kimi istifadə olunur.

4 Azərbaycan Respublikasının Vergi Məcəlləsi.

[5] Azərbaycan Respublikasının Vergi Məcəlləsində xeyriyyə təşkilatı “xeyriyyə fəaliyyətini həyata keçirən qeyri-kommersiya təşkilatı kimi müəyyən edilir”. Vergi Məcəlləsi xeyriyyə fəaliyyətini “fiziki şəxs və / və ya xeyriyyə təşkilatı tərəfindən həyata keçirilən, birbaşa yardımın göstərilməsi, o cümlədən kompensasiya olmadan maddi və ya digər yardıma (kömək) ehtiyacı olan fiziki şəxslərə və ya birbaşa olaraq belə yardım göstərən təşkilatlara və xeyriyyə təşkilatlarına, o cümlədən bu Məcəllədə digər formada göstərilənlər istisna olmaqla, xeyriyyə təşkilatları və ya ictimai maraqlarla həyata keçirilən elm, təhsil və ya digər fəaliyyətlərə maliyyə vəsaitlərinin verilməsindən ibarət olan fəaliyyət kimi müəyyən edir.”

[6] Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası, AzərbaycanRespublikasında QHT sektoru üzrə Milli Hesabat, 2010.

[7] www.eiti-az.org

**AİB-nın Azərbaycanda apardığı iş haqqında əlavə məlumat üçün aşağıdakı linkə daxil olun www.adb.org/Documents/Fact_Sheets/AZE.pdf**

## Vətəndaş Cəmiyyəti Əməkdaşlığı Anlayışı və onun Məqsədləri

Vətəndaş cəmiyyəti Asiya İnkişaf Bankı (AİB) və onun borc götürənləri və sifarişçilərinin əməliyyatlarında çox mühüm tərəfdir. Vətəndaş cəmiyyəti hökumət və özəl sektordan ayrıdır və müxtəlif fərdlər, qruplar və qeyri-gəlir təşkilatlarından ibarətdir. Onlar ümumi maraqlar, məqsədlər və dəyərlər ətrafında müxtəlif formallıq dərəcəsi ilə fəaliyyət göstərir və qeyri-rəsmi mütəşəkkil olmayan ictimai qruplardan geniş beynəlxalq həmkarlar ittifaqı təşkilatlarına qədər geniş dairəni əhatə edir. AİB üçün qeyri-hökumət təşkilatları, ictimai təşkilatlar və xalq təşkilatları, fondlar, peşə birlikləri, tədqiqat institutları və universitetlər, həmkarlar ittifaqları, kütləvi təşkilatlar, sosial hərəkatlar, və koalisiyalar və vətəndaş cəmiyyəti təşkilatlarının (VCT) koalisiyaları və şəbəkələri və çətir təşkilatlar xüsusi əhəmiyyət daşıyır.[a]

AİB VCT-nı səyləri hökumət və özəl sektorun səylərini tamamlayan, və Asiya və Sakit Okean ərazisində inkişafda mühüm rol oynayan, öz hüquqlarına malik inkişaf tərəfləri kimi qəbul edir. AİB siyasət və ölkədə strategiya səviyyəsində məsləhət vasitəsilə müxtəlif kontekstlərdə və layihələrin hazırlanması, həyata keçirilməsi və monitorinqində VCT-ı ilə uzun müddətli əlaqə təcrübəsinə malikdir.

2008-ci ildə AİB Strategiya 2020-yə başlamışdır, burada 2020-ci ilə kimi təşkilatın gələcək istiqaməti və baxışları nəzərdə tutulur.b Bundan başqa, Strategiya 2020 AİB əməliyyatlarını istiqamətləndirmək üçün üç əlavə strateji planı təqdim edir: hərtərəfli iqtisadi inkişaf, ekoloji cəhətdən dayanıqlı inkişaf, və regional inteqrasiya.[b] Bu planlar bölgədə yoxsulluğun azaldılmasında əhəmiyyət daşıyan inkişaf tempi deyil, eyni zamanda inkişaf nümunəsi olması fikrini əks etdirir. Bu yeni strateji kontekstdə müxtəlif təşkilatlar, o cümlədən VCT-ı ilə əməkdaşlıqlar AİB layihələrinin planlaşdırılması, maliyyələşdirilməsi, həyata keçirilməsi və qiymətləndirilməsində əsas olacaq.

[a] AİB. Gözlənilən. *İnkişaf Nəticələri üçün İştirakın Gücləndirilməsi.* Manila.
[b] AİB. 2008. *Strategiya 2020: Asiya İnkişaf Bankının uzun müddətli strateji çərçivəsi, 2008–2020.* Manila.

Azərbaycan Rezident Missiyası
Azərbaycan, Bakı AZ1010, Xəqani küçəsi 45A,
Landmark II, 3-cü mərtəbə
Tel +994 12 437 3477
Fax +994 12 437 3475
www.adb.org/AZRM

Bu nəşrdə “$“ ABŞ dollarını ifadə edir.

Çap Fond Xeyr ARM114076 Dekabr 2011